*Elşən Qənimətoğlu*

***Ağlayır ürək***

Yenə parçalanır sinəmdə ürək,
Bu dərdəmi görən,
ürək dözəcək?
O dağlar, bulaqlar
Bizdən küsəcək,
Yenə həzin-həzin ağlayır ürək.

Uzana yollara boylanır, baxır,
Qəmlənib bu dərdlə
Arazım axır.
Keçən gün qəlbimi
Yandırıb yaxır,
Yenə həzin-həzin ağlayır ürək.

Kimsəsiz çöllərdə yalqızam,
yalqız,
Vətənimdə qaldım
bu gün yuvasız.
Qarabağ keçməyir
qanlı-davasız,
Yenə həzin-həzin ağlayır ürək.

Alovun içində yandı körpələr,
Rəhm etməz buna
zalım köpəklər.
Dözə bilmir, Allah,
dərdli ürəklər,
Yenə həzin-həzin ağlayır ürək.

Xocalı elimin mərd oğulları,
Axıdır torpağa şəhid qanları.
Sağalmaz köksümdə
düşmən yarası,
Yenə həzin-həzin ağlayır ürək.

Solub çəmənimin gülü, bağçası,
Aparmır bahardan
bahar xonçası.
Çalınır Xocalıda
“Vağzalı” havası,

Yenə həzin-həzin ağlayır ürək.

Neçə il salıbdır sinəmdə yara!
Qaysaq bağlasa da,
sağalmaz yaram.
Çəkir bu dərd məni
hər zaman dara,
Yenə həzin-həzin ağlayır ürək.

### *Necə qıydı*

Necə qıydı o gün sənə
Əllərində tüfəng, tənə,
Od yağırdı həmin günə,
Necə qıydı o gün sənə.

O gün yanan Xocalıydı.
Hər tərəfin ah-naləydi.
Beş yaşında körpə idi,
Necə qıydı o gün sənə.

Düşmən kəsib hər yolunu,
Körpə gözləyir yolunu.
Məhv edibsə baş-qolunu
Necə qıydı o gün sənə.

Qəlbindəki arzuların,
Açmayıbdı çiçək yazın.
Soldu sənin gül camalın,
Necə qıydı o gün sənə.

Qəlbindəki mərhəmətin,
Xocalıda mərd igidin,
Beş yaşında bu şəhidin,
Necə qıydı o gün sənə.

Fəryadına bax ananın.
Dalğalanan o bayrağın.
Qar üstündə körpə qanın
Necə qıydı o gün sənə.

Lal olmuşdu sanki dillər,
Köç edirdi yurddan ellər,
Boynubükük nərgiz güllər,
Necə qıydı o gün sənə.

Beş yaşında bu körpənin,
Qara daşdan daş mərmərin.
Yas tutub o qərənfilin,
Necə qıydı o gün sənə.

***Qənimətoğlu E. Ağlayır ürək ; Necə qıydı : şeirlər // Palitra. – 2015. – 26 fevral. – S.15.***